# Sizi Qarabağın qarğışı tutdu...

Ey tarixin qarğadığı erməni!
indi ağlaya-ağlaya şivən qurub,
ondan-bundan aman gəzirsən,
dilənirsən, dirənirsən, yalvarırsan:
-"yazıq oldum, xilas eyləyin məni!..."
elə səbəb axtarırsan,
- niyə düşdün bu günə?
sualını sən ünvanla,
ədalətin hökmünə!
dünyada ən ağır qarğış
xaraba qoyulmuş
abadlıqların qarğışıdı...
sizi xaraba qoyduğunuz
Qarabağın qarğışı tutdu.
... güllə qabağında məhv eyləyib,
yurd-yuvasından qovduğunuz insanlar,
qəlbi qan ağlayanlar, ömrü qan ağlayanlar,
yağmalayıb uçurduğunuz gözəl-gözəl evlər,
küçələr, meydanlar, qəbristanlıqlar,
hələ Allah evlərindəki allahsızlığınız...
dözməzdi ki, göylər...
dözməzdi ki, babaların, nənələrin,
igid, qorxmaz sərkərdələrin
min-min illərdən bəri
bu yurd üstə dolaşan ruhları...
dözməzdi Xocalının
yer üzünü, göy üzünü, tarixi silkələyən
nalələri, fəryadları...
dözməzdi Türk dünyası, Türk qeyrəti, Türk övkəsi,
dözməzdi Azərbaycan ordusu,
Azərbaycan ölkəsi,
dözməzdi bu elin adı-sanı...
müqəddəs bir ad daşıyan
Ali Baş Komandanı!
"...bu dünyanın nizamını pozmayın!"- deyib
əmr edib Allah!
bax Qurani-Kərimin ayələrinə,
müdrik insanların dediklərinə...
Allahın əlaməti, Allahın yoludu ahəng,
sən ahəngi pozdunmu,
Allah hesab çəkəcək, deyib
hay-haray salmışam illər uzunu...
dünyada ən ağır qarğış
xaraba qoyulmuş abadlıqların qarğışıdı...
sizi xaraba qoyduğunuz
Qarabağın qarğışı tutdu.

---

**Əhməd Qəşəmoğlu**



Azad Azərbaycan.- 3 dekabr.- 2020- ci il.- S. 11